# Ağ ölümə “yox” deyək!

Bu gün bəşəriyyəti düşündürən və rahatsız edən ən ağrılı problemlərdən biri də cəmiyyətin ciddi bəlasına, xalqın, millətin təhlükə mənbəyinə çevrilən narkomaniya və geniş anlamda narkotizmdir.

Narkotizmlə mübarizə uzunmüddətli, çoxşaxəli, geniş maliyyə vəsaiti tələb edən dinamik bir prosesdir. Problemin ictimai təhlükəliliyi isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir və durmadan artır.

Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2013-cü il 2966 nömrəli Sərəncamı ilə təsdiq olunmuş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram (2013-2018-ci illər)”ın Tədbirlər Planının icrası ilə bağlı 2015-ci ilin 6 ayı ərzində dövlət sərhədində 72,928 kiloqram narkotik vasitə qanunsuz dövriyyədən çıxarılmışdır. Ötən illə müqayisədə Dövlət Sərhəd Xidməti tərəfindən qanunsuz dövriyyədən çıxarılan narkotik vasitələrin miqdarı 22,8 % azalmışdır. Dövlət Sərhəd Xidməti tərəfindən keçirilən kompleks tədbirlər nəticəsində 72,928 kiloqram narkotik vasitənin (3 kiloqram 177 qram heroin, 37 kiloqram 66 qram tiryək, 4 kiloqram 18 qram həşiş və həşiş qətranı, 27 kiloqram 139 qram marixuana, 20 qram metadon, 29 qram metamfetamin) dövlət sərhədindən keçirilməsinə cəhd edən 13 nəfər Azərbaycan Respublikası, 5 nəfər İran İslam Respublikası vətəndaşı saxlanılmış, cinayət məsuliyyətinə cəlb olunmuşdur.

Bununla yanaşı, cari ildə sərhədyanı meşə və çöllük sahələrində yabanı bitən 8070 kiloqram xaş-xaş (Zaqatala və Yardımlı rayonları), 1179 kiloqram çətənə kolları (Lerik və Astara rayonları) və Astara rayonunun Züngüləş kəndinə yaxın dağ massivində xüsusi aqrotexniki qaydada becərilmiş 19 kiloqrama yaxın çətənə kolları polis, ərazi icra və bələdiyyə nümayəndələrinin iştirakı ilə məhv edilmişdir.

Narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyədən çıxarılması ilə bağlı faktlar barədə qısa məlumatlarla oxucuları tanış edirik : “20.01.2014-cü il tarixdə Cəlilabad rayonunun Şatırlı və Əsədli kəndləri istiqamətində bir şübhəli şəxsin yolda duran avtomaşına yaxınlaşması müşahidə olunmuşdur. Sonra şübhəli şəxs meşə zolağına, avtomaşın isə Cəlilabad şəhəri istiqamətində hərəkət etmişlər. Əraziyə baxış keçirilmiş, meşə zolağında kisədə 400 qrama yaxın heroin aşkar olunmuşdur. Keçirilmiş əməliyyat tədbirləri nəticəsində narkotik maddənin daşınmasında şübhəli bilinən Cəlilabad rayon sakini müəyyən edilmişdir.

22.01.2014-cü il tarixdə, 15-ci sərhəd zastavasının xidməti sahəsində 20.01.2014-cü il tarixdə, saat 18:30 radələrində aşkar olunmuş narkotik maddənin daşınmasında şübhəli bilinən Cəlilabad rayon sakini Şükürov Elşad Məhərrəm oğlu saxlanılaraq sərhəd zastavasına gətirilmişdir. Saxlanılan şəxs 23.01.2014-cü il tarixdə DSX İTİ-nə təhvil verilmişdir. 14.02.2014-cü il tarixdə, Biləsuvar rayonunun ərazisində İrandan Azərbaycana qeyri-qanuni keçən iki sərhəd pozucusu İran İslam Respublikasının vətəndaşları yaxalanmış onların üzərlərində 1 ədəd gecə görmə cihazı, təxminən 7 kiloqram tiryək, 350 qram heroin və 3,270 kiloqram marixuana aşkar olunmuşdur.

21.02.2014-cü il tarixdə Beyləqan rayonunun 1-ci Şahsevən kəndi ərazisində sərhəd naryadı tərəfindən Bərdə rayon sakini saxlanılmış, onun üzərində 11 kq 85 qr həşiş qətranı, 10 kq 50 qr tiryək, 19,392 qr heroin aşkar olunmuşdur. 22.02.2014-cü il tarixdə Cəlilabad rayon Dələli kənd ərazisində Biləsuvar gömrük idarəsi ilə birgə keçirilmiş tədbirlər nəticəsində iki nəfər Bərdə rayon sakini saxlanılmış, onların üzərlərində 3,2 kq marixuana, 840 qram tiryək, 1 kq həşiş qətranı aşkar olunmuşdur. 15.04.2014-cü il tarixdə Cəlilabad rayonunun Sərxanlı kəndinin ərazisinə sərhəd naryadı tərəfindən baxış keçirilərkən yulğun kollarının arasından 2 bağlamada 8,7 kiloqram marixuana, 14 kiloqram tiryək, 9,22 kiloqram heroin, 22,9 kiloqram həşiş, və 300 millilitr metadon məhlulu aşkar edilmişdir. 29.05.2014-cü il tarixdə, Cəlilabad rayonunun Şükürlü kəndinin ərazisinə baxış zamanı 5 kq tiryək aşkar olunmuşdur.

05.01.2014-cü il tarixdə, Yardımlı rayonunun Gendərə kəndinin ərazisində İrandan Azərbaycana qeyri-qanuni keçən 4 nəfər sərhəd pozucusu aşkar edilmişdir. Sərhəd pozucularının qarşısı alınarkən onlar sərhəd naryadına qarşı silahdan atəş açmış, geri İrana qaçmışlar. Əraziyə baxış zamanı kisədə 4 kq tiryək və 1 kq heroin aşkar olunmuşdur. 14.02.2014-cü il tarixdə Yardımlı rayonunun Abbaslı kəndinin ərazisində sərhəd naryadı tərəfindən əraziyə baxış zamanı 5 yeşik (300 min ampula) beynəlxalq nəzarətdə olan “Opidol” dərman preparatı aşkar olunmuşdur. 05.05.2014-cü il tarixdə, “Astara” SNM-də İrandan Azərbaycana keçərkən üç Şirvan şəhər sakini saxlanılmış, onların bədənlərində gizlədilmiş 234,7 qram tiryək aşkar olunaraq götürülmüşdür. 31.05.2014-cü il tarixdə, Heydər Əliyev Beynəlxalq Hava Limanında Bakı şəhər sakininin üzərinə gömrük orqanları ilə birgə baxış keçirilərkən əl çantasından 161 qram heroin aşkar olunaraq Hava Limanı Baş Gömrük İdarəsinə təhvil verilmişdir.




04.06.2014-cü il tarixdə Beyləqan rayon 1-ci Şahsevən kənd ərazisində sərhəd naryadı tərəfindən İrandan Azərbaycana qeyri-qanuni keçməyə cəhd edən İran İslam Respublikasının Parsabad şəhər sakini sərhəd pozucusu qismində saxlanılmış, onun üzərində 2 kq həşiş, 1 ədəd “Maqnium-200” markalı tapanca aşkar edilmişdir.

02.06.2014-cü il tarixdə Yardımlı rayon Abbaslı kənd ərazisində sərhəd naryadı tərəfindən axtarış tədbirləri nəticəsində aşkar olunmuş üç bağlamada müxtəlif çeşidli 131 min tablet və kapsula psixotrop dərman preparatları aşkar olunmuşdur.

10.06.2014-cü il tarixdə Cəlilabad rayonunun Dələli kəndi ərazisində sərhəd naryadı tərəfindən İrandan Azərbaycana qeyri-qanuni keçmiş Cəlilabad rayon sakini saxlanılmışdır. Onun üzərində 690 qram marixuana, 2 ədəd politilenə bükülmüş toz şəkilində maddə, 1 ədəd bıçaq, 12 manat pul, çəkisi 1,5 qram toz şəklində olan torpaq rəngli narkotik maddə aşkar olunaraq götürülmüşdür;”

Bütün faktlar üzrə DSX tərəfindən cinayət işləri qaldırılmışdır.

Dövlət Sərhəd Xidməti

---



# Müsavatın fəlakəti

**Taleh Turqut**

Az qala bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Müsavatın sonuncu qurultayından bəri bu təşkilatda çalxalanmalar səngimək bilmir. Arif Hacılının başqan seçilməsi ilə Müsavat Partiyasının sonu olacaq ehtimalının sahibləri fikirlərində haqlı oldular.

Partiya daxilində qarşıdurmalar yenidən qızışmağa başlayıb. Bir müddət bundan öncə Müsavat rəhbərliyinin saxta vəsiqə alveri ilə məşğul olması barədəki fikirlərin müəllifi, müsavatçı jurnalist Elbəyi Həsənli yenidən A. Hacılı komandasının hədəfinə tuş gəlib. Ümumiyyətlə, yeni başqanın komandası onlara qarşı ən zəif bir tənqidi fikir səsləndirənlərə qarşı elə aqressiv hücuma keçirlər ki, sanki ən qəddar düşmənləri ilə mübarizə aparırlar. Bu baxımdan E. Həsənlinin “sandığı açıb, pambığı tökməsi” ona yönəlik hücumları da alovlandırıb. Partiyanın aparat rəhbəri Gülağa Aslanlı onu məhkəməyə verməklə hədələyib.

Qeyd edək ki, partiya mənsublarının qarşılıqlı ittihamları bir qayda olaraq küçə jarqonu ilə müşahidə olunur. Müsavatçı jurnalist də “ənənəyə” sadiq qalaraq onu yalançılıqda ittiham edənləri “balqabaq” və “xiyar” kimi bostan bitkiləri adlandırıb və bildirib ki, o, bu məsələnin məhkəmə müstəvisində həll edilməsinə sevinər. Lakin: “Gülağa bəyin məhkəməyə müraciət edəcəyinə isə qətiyyən inanmıram. Çünki əsgiləri tüstülüdür. Amma belə bir addım atsa, mən buna çox sevinərəm... Ancaq ona da əminəm ki, məhkəmədə heç indi adı çəkilməyən o qədər pisliklər üzə çıxacaq ki...”

Görünür, müsavatçı jurnalist mənsub olduğu dəstənin çirkab içində olduğuna tamamilə əmindir. Yoxsa, bu qədər arxayınlıqla meydan oxumazdı...

Vurğulayaq ki, yeni başqanın partiyadan qovulanlar və istefa verənlərlə də qalmaqalları tükənmək bilmir. A. Hacılı keçmiş rəqibi Qubad İbadoğlunu hələ də təhlükəli hesab etdiyindəndir ki, vaxtaşırı onu tənqid etməkdən, sancmaqdan geri qalmır. Lakin adekvat hücum təkcə ona deyil, həm də “ağsaqqalı” hesab etdiyi “əbədi başqan” İsa Qəmbərə qarşı yönəlir.

Belə ki, Hacılının Q. İbadoğlunu vaxtilə partiyada İqtisadiyyat komissiyasının rəhbəri kimi fəaliyyətsizlikdə ittiham etməsi keçmiş müsavatçını əsəbiləşdirib. Bu zaman İ. Qəmbərin də məsələyə ədalətsiz yanaşması onu daha çox incidib. Q. İbadoğlu İsa Qəmbəri ədalətsizlikdə ittiham edib: “İsa Qəmbər ədalət hissini çoxdan itirib. Onda azacıq da olsa ədalət hissi qalsaydı, uğurlarımızda kifayət qədər əhəmiyyətli rol oynayan iqtisadiyyat, səhiyyə, təhsil sahəsində proqramların olduğunu xatırladar və bu açıqlamaya etiraz edərdi”.

Əlbəttə, Q. İbadoğlunun “uğurlarımız” deyərkən nəyi nəzərdə tutduğu qaranlıq qalır. Müsavatın bu günədək qazandığı “uğurlar”ın paçalanmadan və bir qrup insanı aldatmaqdan başqa bir şey olmadığı hər kəsə məlumdur. O ki qaldı İ. Qəmbərin ədalətinə, bu “ədalət” nəticəsində Müsavat Partiyasının hansı duruma düşdüyü də elə ən yaxşı Q. İbadoğluna məlum olmalıdır...

Burada bir faktı da xatırladaq ki, partiyadan yeni istefalar dalğasının anonsları verilməkdədir. Bu günlərdə Müsavatın qurucularından hesab edilən, partiyanın əsas mətbu orqanına rəhbərlik edən Rauf Arifoğlu partiyadan istefa verəcəyi barədə açıqlamalar verib. Onun ardınca bir qrup müsavatçı jurnalist də analoji addımı atacaqlarını bildiriblər.

R.Arifoğlu istefasının səbəblərinə tam aydınlıq gətirməsə də onun öz sözlərindən və mediada dolaşan xəbərlərdən məlum olur ki, partiyanın “informatorları”ndan məhrum qalmasının da səbəbi yeni başqan A. Hacılının “müstəsna liderlik qabiliyyəti”nin nəticəsidir.

Hesab edilir ki, Müsavat Partiyasının siyasi səhnədə az-çox hiss edilən varlığı “Yeni Müsavat” qəzeti vasitəsilə mümkün olduğundan, bu tribunanın əldən getməsi faktiki Müsavatın “yox olması” ilə nəticələnəcək. Hər halda qarşıdan gələn seçkilər öncəsi partiyada yeni savaşların baş verəcəyinə indidən əmin olmaq olar.